# Böyük siyasi və diplomatik qələbə

***24 oktyabr 2011-ci il Azərbaycanın müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Həmin gün BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, respublikamız 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Təhlükəsizlik Şurasında təmsil edəcək yeni qeyri-daimi üzv seçildi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi respublikamızın beynəlxalq müstəvidə qazandığı son dərəcə böyük siyasi və diplomatik qələbə idi. Bu uğur, həm də Azərbaycanın öz milli maraqlarının beynəlxalq səviyyədə müdafiəsi baxımından daha geniş imkanlar yaradırdı.***

**2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdi. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



**Səkkiz il əvvəl oktyabrın 24-də Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib**

Göründüyü kimi, müstəqilliyinin 20-ci ilini yaşayan Azərbaycanın beynəlxalq miqyasda, dünyanın ən aparıcı beynəlxalq təşkilatında 155 ölkənin etimadını qazanması ölkəmizə olan inam və etibarın bariz nümunəsi idi. Bu, həm də Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi idi...

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıya qoyulan əsas vəzifələrdən biri beynəlxalq aləmə inteqrasiya olunmaq, inkişaf etmiş dövlətlərlə əməkdaşlığı genişləndirmək və demokratik prinsiplərə önəm vermək olmuşdur. Xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi baxımından beynəlxalq təşkilatların üzvü olmaq böyük önəm daşıyırdı. 1991-ci il oktyabrın 29-da müstəqil Azərbaycan BMT-nin Baş Məclisinə və dünya dövlətlərinə müraciət edərək, BMT-yə üzv qəbul olunmasını xahiş etmişdir. Beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respulikasının BMT-nin üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul edildi. 1992-ci il martın 6-da Nyu-Yorkda Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi fəaliyyətə başlamış, həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda Daimi Nümayəndəliyi açılmışdır.

Həmin dövrdə ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki naşılığı nəticəsində yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin davam etdirilməsinə nail ola bilmədi. Xalqın təkidi ilə ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanın nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən BMT ilə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Prezident Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu nüfuzlu beynəlxalq təşkilatın tribunasından ölkəmiz ilə bağlı, xüsusilə, Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan Respublikasının prinsipial mövqeyini açıqlamış, xüsusilə, Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. Bundan sonra ölkəmizin bu qurumla əlaqələrinin möhkəmləndirilməsi istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

2000-ci ilin sentyabr ayında BMT-də Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir. Əməkdaşlığın getdikcə möhkəmləndirilməsi istiqamətində atılan addımlar Azərbaycanın BMT-dəki Daimi Nümayəndəliyinin həm BMT, həm də onun ixtisaslaşdırılmış qurumları ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlıqda özünü büruzə verdi. Siyasi sahədə əməkdaşlığın əsas məqsədi Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətini münaqişə bölgəsində baş verən hadisələrə cəlb etmək və dünya ictimaiyyətində obyektiv rəy formalaşdırmaq idi.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da möhkəmləndirməyi, nüfuzlu qurumlara üzv olmağı və həmin qurumların tədbirlərində fəal iştirak etməyi dövlət siyasətinin prioritetinə çevirdi.

Dövlətimizin başçısının düşünülmüş siyasi kursu nəticəsində Azərbaycanın BMT üzvlüyünə daxil olması ilə yaranan qarşılıqlı əlaqələr daha da genişlənərək, çoxşaxəli əməkdaşlığa çevrildi. Bu da respublikamızın müstəqil dövlət kimi inkişafında, beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynadı. Eyni zamanda, Azərbaycan da bu nüfuzlu beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verdi.

Azərbaycan BMT-nin islahatlar nəticəsində yaradılmış İnsan Hüquqları Şurasına seçilən ilk 47 ölkədən biri olmuş və 2006–2009-cu illəri əhatə edən üzvlük müddətində öz səmərəli fəaliyyəti ilə bu qurumun işinə layiqli töhfəsini vermişdir. Şurada göstərdiyi fəallığın nəticəsi olaraq, ölkəmiz BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nimayəndəsi 2008–2009-cu illər üzrə İnsan Hüquqları Şurasının vitse-sədri məruzəçisi seçilmişdir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi respublikamızın beynəlxalq müstəvidə reytinqinin yüksəlməsinin təsdiqi idi. Ölkəmiz iki il müddətində iki dəfə növbə ilə – 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını yerinə yetirdi. Təhlükəsizlik Şurasına sədrliyi dövründə bu qurumun fəaliyyət gündəliyini müəyyən etməklə, dünyadakı hadisələrlə bağlı qərar qəbuletmə prosesinin fəal iştirakçısına çevrildi. Azərbaycan Yaxın Şərq, Afrika və Balkan regionlarında cərəyan edən proseslər, o cümlədən dünya ictimaiyyətinin diqqət mərkəzində olan sülh və beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə və münaqişələrin həll edilməsi kimi digər qlobal əhəmiyyətli məsələləri Təhlükəsizlik Şurasının gündəliyi çərçivəsində müzakirəyə çıxardı. Ən vacibi isə Azərbaycan Dağlıq Qarabağ münaqişəsini prioritet məsələ kimi diqqət mərkəzində saxladı.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmiz üçün böyük uğur olmuşdur. Azərbaycanın bu uğurunun əhəmiyyətini qiymətləndirmək üçün təkcə onu vurğulamaq kifayətdir ki, SSRİ-nin süqutundan sonra TŞ-də SSRİ-nin varisi qismində daimi üzv olan Rusiya istisna olmaqla, müstəqillik qazanmış 15 keçmiş sovet respublikasından yalnız Ukrayna 2000-ci ildə BMT TŞ-yə üzv ola bilmişdi.

Prezident İlham Əliyev səsvermənin nəticəsindən dərhal sonra xalqı təbrik etmiş və ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə baş verdiyini bildirmişdir. BMT Təhlükəsizlik Şurasının dünyanın ən mötəbər qurumu olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanın müstəqil dövlət kimi artıq bu qurumun üzvü olmasını çox böyük qələbə adlandırmışdır. Ölkə başçısı bəyan etmişdi ki, 155 ölkənin Azərbaycanı dəstəkləməsi ölkəmizə inamın, etimadın göstəricisidir: “Müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu, Azərbaycan xalqının və dövlətinin qələbəsidir”.

Prezidentin təbrikində qeyd edilirdi ki, Azərbaycan bu təşkilatda sadiq olduğu ideallara, sülhə, təhlükəsizliyə, demokratiyaya, ədalətə xidmət edəcək.

Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilən ilk ölkədir. Bu tarixi hadisə respublikamızın dünya miqyasında artan siyasi nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir. Bununla yanaşı, Azərbaycan dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr quraraq bunu dövlətlərarası sivil münasibətlər müstəvisində daim inkişaf etdirir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu xarici siyasət kursu nəticəsində Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***